UOT: 595.78-19

# AZƏRBAYCANIN QARIŞÇI KƏPƏNƏKLƏRİ (LEPIDOPTERA, GEOMETRİDAE) DƏSTƏSİNİN ÖYRƏNİLMƏ TARİXİ

**HACIYEVA S.Ə.**
*AMEA Zoologiya İnstitutu*
biosekine@mail.ru

**Abstract:** Geometridae is the second largest group of Lepidoptera. Because of their great economic importance, we decided to focus on the history of their studies. The study of geometrid moths in Azerbaijan began in the middle of the 19th century. In the second volume of the works of H.M. Romanov, Menetrie, Kristoff, Lederer and others mention a large number of butterflies collected from the Caucasus (970 species), 105 species and 2 subspecies of which are geometrid moths. The list of the works of scientists who studied this group until the end of the twentieth century is presented in the references. A. Piriev systematically studied the geometrid moths of Absheron (127 species) for the first time. S. Hajiyeva identified 168 species for Mountainous Shirvan, of which 10 species are new to the fauna of Azerbaijan.
***Keywords:*** *Lepidoptera, geometrid moths, Mountainous Shirvan.*

## GİRİŞ

Qarışçılar kəpənəklər dəstəsinin böyük və özünə məxsus fəsiləsi olub, çox müxtəlif biotoplarda məskunlaşıb, biosenoz və aqrosenozlarda əsas rol oynayır. Kütləvi çoxaldığı illərdə yem otlarına, tərəvəzlərə, meyvə-giləmeyvələrə, dərman bitkilərinə, həmçinin otlaqlara və meşə ağaclarına ciddi zərər verir. Bu kəpənəklərdən çoxu çiçəkli bitkilərin tozlanmasında iştirak etdiyindən təsərrüfat əhəmiyyəti böyükdür.

Hal-hazırda Azərbaycan ərazisində kənd təsərrüfatı və meşələr yaxşı inkişaf etdiyindən bu fəsilənin öyrənilməsi üçün xüsusi tədqiqatlara ehtiyac var.

Azərbaycanda qarışçı kəpənəklərin öyrənilməsi XIX əsrin ortalarından başlanmışdır. İlk dəfə E.Menetrienin Talışdan yığdığı materiallar çox maraqlı və özünə məxsus olduğundan başqa tədqiqatçıları da özünə cəlb etmişdir [1]. V.Hedemann [2], L.Lederer [3], A. Becker [4], H.Christoff [5], M.A.Ryabov [6], N.Q.Mironov [7] və s. tədqiqatçılar öz nəticələrini məqalə, memuar və ayrı-ayrı islər şəklində keçən əsrdən çap etməyə başladılar. Onlarin topladığı materiallar Azərbaycanın başqa regionlarını və Qafqazı da əhatə edirdi.

H.M.Romanov (N.M.Romanoff), O.Ştaudinqer və Q.Rebel (O.Ştaudinger and H.Rebel) öz memuar və kataloqlarında Zaqafqaziyanın kəpənəklərinin böyük siyasını vermişlər [8, 9].

Ştaudinqerin və Rebelin Qafqazdan topladıqları 324 növ qarışçı kəpənəyi “Arm”, “Armeniya”, “Rus Zaqafqaziyası” adı altında verilmişdir.

H.M.Romanov əsərlərinin II cildində, Menetrie, Xristoff, Lederer və başqaları tərəfindən Zaqafqaziyadan topladıqları kəpənəklərin siyasında (970 növ), 105 növün və 2 yarımnövün qarışçılara aid olduğunu göstərir.

Bu növlər Naxçıvan, Ordubad, Areşe (indiki Ağdaş), Helenedorfun (indiki Göygöl rayonu) Hacıkənd kəndindən, Gədəbəydən, Kəlbəcərin İstisu kəndindən və s. toplanmışdır.

Xristoffun işlərində Talışdan 50 növ qarışçı kəpənəyi qeyd edilmişdir ki, onlardan da 27 növ Azərbaycan faunası üçün ilk dəfə göstərilmişdir.

M.A.Ryabovun [6] Naxçıvan və Talışdan yığdığı materiallarda 6 növ qarışçı kəpənəyi qeyd edilmişdir. O, qarışçıların Cnophoe cinsinin Qafqaz növlərini öyrənəndə 5 növ qarışçı kəpənəyi Azərbaycan faunasına əlavə etmişdir.

Ç.B. Cəfərov [10] öz əsərlərində Azərbaycan faunası üçün 23 növ qarışçı kəpənəyi göstərmiş, bunlardan da 8 növ ilk dəfə qeyd edilmişdir.

Macarıstanlı entomoloq A.N.Vojnits [11] M.A.Ryabovun materiallarından qarışçı kəpənəklərin *Eupithecia* cinsindən 3 növü Nax.MR üçün göstərmişdir.

B.Q.Mironov Rusiya EA Zoologiya institutunda Xristoff və Ryabovun Nax.MR və Talışdan

topladığı materialları işlədikdə *Eupithecia* cinsindən elm ıçün yeni 2 növü təsvir etmiş, 4 növü isə Azərbaycan faunası üçün ilk dəfə göstərmişdir. Bu məlumatlara əsasən Azərbaycandan 140 növ qarışçı əsasən Nax.MR-nın Ordubad rayonundan, Göygöl, Gədəbəy rayonlarından və Talışdan toplanmışdır. E. Didmanidze [12] Gürcüstanın qarışçı kəpənəklərini öyrənərkən Gürcüstanın milli myzeyində saxlanılan Azərbaycandan toplanan materiallardanda istifadə etmişdir.

Qarışçı kəpənəkləri dəstəsinin böyük təsərrüfat əhəmiyyətinə və növ müxtəlifliyinə baxmayaraq Azərbaycanda xüsusi olaraq öyrənilməmişdir.

İlk dəfə Azərbaycanda qarışçı kəpənəklərinin xüsusi öyrənilməsi A.Piriyev [13] tərəfindən Abşeron-Qobustan təbii rayonunda aparılmışdır. 127 növ qarışçı kəpənəyi toplanmışdır. Hər növ haqqında qısa məlumat, biologiyası, ekologiyası, şaquli qurşaqlar və bitki assosasiyaları üzrə yayılması verilmişdir.Talışdan toplanan bir növ (*Euchrognophoe effendi Vidalepp et Pirijev*) elm üçün yeni növ kimi təsvir edilmişdir. Bunları nəzərə alaraq Azərbaycanin digər regionlarinda da öyrənilməsi vacibdir. Bu məqsədlə 2017-2020- ci illərdə Dağlıq – Şirvan fiziki - coğrafi rayonunda bu istiqamətdə tədqiqatlar aparılmışdır. Bu vilayətə daxil olan Ağsu, Göyçay, Şamaxı, İsmayılli və Qobustan rayonlarına yaz, yay və payız aylarında ekspedisiyalar təşkil olunmus və toplanan qarışçı növləri təyin olunaraq Zoologiya institutunun kolleksiyasında yerləşdirilmişdir. Bu fiziki - coğrafi rayon üçün qeyd olunan 168 növdən 69 növü ilk dəfə qeyd edilir. Bunlardan 10 növü (*Biston betularia* Linneu, 1758, *Gnophos ciscaucasica* Riabov, 1964, *Hypomecis robaria* Denis and Shiffermuller, 1775, *Megaspilates mundataria* Stoll, 1782, *Macaria signaria* Hubner, 1809, *Chlorissa cloraria* Hubner, 1813, Comibaena bajularia *Hypomecis* Denis and Shiffermuller, 1775, *İdaea biselata* Hufnagel, 1767, *Scopula minerata* Boisdual, 1833, *Crocallis inexpectata caucasia* Werli, 1928) Azərbaycan faunası üçün yenidir [14, 15].

## ƏDƏBİYYAT


1. Menetries E. Sur les Lepidopteres de Lenkoran et de Talich. Bull.Phis-mat. St.-P. 1858.
2. Hedemann W. Beitrag sur Kentnis der Lepidopteren Fauna Transcaucasiens. Horea. Boc. Ent. Ross.1869, s. 153-157
3. Lederer İ. Contri bution soca la fauna des Lepidopteree de la Transcaucasie. Ibid. Bd. 13. 1870. S.17-54.
4. Becker A. Rekse in die Kirghisensteppe, nach Astrahan und an Caspien Meer. Ibid. Bd. 39. 1873. s. 163-209
5. Christoff H. New Lepidoptren aus dem Caucasus. Mem. Lep.Bd.5.1889.S.193-202.
6. Рябов М.А. Кавказские виды рода Gnophos. Сб. тр. АН Арм.ССР, вп. 13 Ереваи,1964. с.105-140
7. Мироиов В.Г. Новый вид пядеиид рода Eupithecia Gurt. (Lepidoptera,Geometridae ) из Закафказья Еитом.Обз. Т. 67. вып. 2. 1988. С. 369-371.
8. Romanoff N. Les Lepidopteres de la Transcaucasie.Mem. sur. Les Lepidopteres. 1985, t. II, pp. 1-118
9. Staudinger and Rebel H. Catalog der Lepidopteren des Palaearctischen faunengebietes. Macrolepidoptera. Berlin 1901.32-$11s.
10. Джафаров Ч.Б. Листогрызущие чешуекрылые вредители лесов Малого Кавказа в пределах Западиый части Азербайджаиской ССР и меры борьбы с иими. Автореф. каид. дпссерт. Баку, 1982, 19 с.
11. Vojnits A.N. New Eupithecia species form the Asistic regions of the Soviet Union and Iran. XIV Acad. Sci.Hung. Vol.28. N 3-4.1982.P.403-420
12. Дидмаиидзе Э.А. Пядеиицы Грузии и с определьиых страи Кавказа ст.192
13. Эфеидп Р.М., Впйдалепп Я.Р., Ппрпев А.А. Новые для фауиы СССР Закавказья пядеиицы (*Lepidoptera*, *Geometridae*) из Азербайджаие.
14. Hajiyeva S.A. Checlist of geometridae Moths of Azerbaijan. Polish science journal İssue 5 (14), part 2, p.6-24
15. Hajiyeva S., Vidalepp J. Annotated listof geometrid moths (Lepidoptera, Э.Ф. Geometridae) from the mountainous Shirvan region. Polish science journal İssue 8, part 1, p.7-16